# Musiqi-nəzəri fənlərin tədrisində inteqrasiya

**Elmira Əfəndiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Musiqi və onun tədrisi metodikası kafedrasının*
*dosenti, əməkdar müəllim*
**E-mail:** elmira_efendiyeva@mail.ru

**Rəyçilər:** s.ü.f.d., dos. A.İ. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** musiqi, təhsil, nəzəriyyə, fənlər, inteqrasiya, bəstəkar, sənət, yaradıcılıq
**Ключевые слова:** музыка, образование, теория, предметы, интеграция, композитор, искусство, творчество
**Key words:** music, education, theory, subjects, integration, composer, art, creativity

Müasir dövrdə, musiqi təhsilinə yiyələnən tələbələrin ümumdünya musiqi mədəniyyətinə dair bilik səviyyələrini təkmilləşdirmək, dünyagörüşlərini genişləndirmək ən vacib məsələlərdəndir. “Musiqi tarixi və ədəbiyyatı” fənnini mənimsəyən hər bir tələbə xarici ölkə, eləcə də Azərbaycanın musiqi mədəniyyətinə dair məlumatlarla təchiz edilir. Həmçinin klassizm, romantizm, impressionizm və sairə kimi cərəyanlara təsadüf etmiş bəstəkarların yaradıcılıqlarını öyrənməklə yanaşı, həmin bəstəkarların üslub xüsusiyyətlərilə də tanış olmalıdırlar.

Musiqi-nəzəri fənlərin, eləcə də ifaçılıq sənətinin öyrədilməsində əsas vəzifə gələcək musiqi müəllimlərini ümumdünya musiqi mədəniyyəti, musiqi tarixi və ədəbiyyatı ilə tanış etmək, onları mükəmməl bilik və vərdişlərlə silahlandırmaq, dünyagörüşlərini genişləndirmək, intellektual səviyyəsini yüksəltmək, elmi təfəkkürünü inkişaf etdirmək, beynəlmiləlçilik keyfiyyətlərini, eləcə də millətinə, xalqına hörmət və məhəbbət hissini formalaşdırmaqdır.

“Musiqi tarixi” fənninin tədrisində musiqi-nəzəri fənlərə inteqrasiya özünü daha parlaq şəkildə nümayiş etdirir. Yaradıcılıqları müxtəlif cərəyanlara təsadüf etmiş istər xarici, istərsə də Azərbaycan bəstəkarlarının yaradıcılıq fəaliyyətləri açıqlanarkən, onların üslub xüsusiyyətləri, meyl etdikləri sahələr araşdırılarkən mütləq əsərləri dinlənilməli, ifa və təhlil edilməlidir. Bu zaman “Musiqi əsərlərinin təhlili”, “Musiqi nəzəriyyəsi”, “Harmoniya”, “Polifoniya”, “Azərbaycan xalq musiqisinin əsasları” fənlərinə inteqrasiya açıq-aydın öz təsdiqini tapır. Bu təsdiq daha çox “Musiqi əsərlərinin təhlili” fənninin, eləcə də “Musiqi nəzəriyyəsi”, “Harmoniya”, “Polifoniya”, “Azərbaycan xalq musiqisinin əsasları” fənlərinin simasında da parlaq şəkildə özünü nümayiş etdirir. Bəstəkarların yaradıcılıqlarında aşkar edilən sekstalı septakkordlar, modulyasiyalar, yönəlmələr, major və minor ladları ilə yanaşı diatonik ladlardan, həmçinin qədim və digər ladlardan istifadələri araşdırılarkən musiqi nəzəri fənlərə inteqrasiya öz təyinini taparaq onların üslub xüsusiyyətlərini müəyyənləşdirir.

Musiqi təmayüllü təhsil müəssisələrində “Musiqi əsərlərinin təhlili” fənninin tədrisində tələbələr xarici və Azərbaycan bəstəkarları tərəfindən yazılmış əsərlərin forma və janr, eləcə də xarakter, faktura, məzmun, ifadə vasitələri və s. üzrə müstəqil təhlil etməyi bacarmalıdırlar. Bu fənnin tədrisində onlar müxtəlif bəstəkarların üslub xüsusiyyətlərini mənimsəməklə yanaşı, yaradıcılıqlarında meyl etdikləri janr və formaları da mənimsəyərək təhlil etməyi öyrənirlər.

“Musiqi əsərlərinin təhlili” fənninin tədrisində bütün “musiqi nəzəri fənlərə” inteqrasiya

çox qabarıq şəkildə özünü nümayiş etdirir. "Musiqi tarixi" fənni üzrə hər hansı bir bəstəkarın yaradıcılıq fəaliyyəti araşdırılarkən onun bəstələdiyi əsər təhlil edilərkən əsərin forma və janr təyinində "Harmoniya", "Musiqi nəzəriyyəsi", "Polifoniya", "Azərbaycan xalq musiqisinin əsasları" kimi fənlər üzrə mükəmməl bilikləri əldə etmədən heç nəyə nail olmaq mümkün deyil. Belə ki, forma, məzmun, xarakter, mövzu, melodiya, sezura, sintaksis quruluşlar, tonallıq, lad və s. kimi musiqinin ifadə vasitələri və bir çox mövzular üzrə dərin biliklərə yiyələnmək tələb olunur. Bu biliklərə "musiqi nəzəri fənlər" üzrə tədris edilən mövzuların öyrənilməsi vasitəsilə mümkündür.

Musiqi təmayüllü təhsil müəssisələrində "Musiqi əsərlərinin təhlili" fənninin tədrisində tələbələr xarici və Azərbaycan bəstəkarları tərəfindən yazılmış əsərlərin forma və janr, eləcə də xarakter, faktura, məzmun, ifadə vasitələri və s. üzrə müstəqil təhlil etməyi bacarmalıdırlar. Bu fənnin tədrisində onlar müxtəlif bəstəkarların üslub xüsusiyyətlərini mənimsəməklə yanaşı yaradıcılıqlarında meyl etdikləri janr və formaları da mənimsəyərək təhlil etməyi öyrənirlər.

Beləliklə "Musiqi nəzəri" fənlər üzrə mükəmməl biliklərə yiyələnmədən Musiqi aləminə dair düzgün açıqlamalar vermək, doğru mülahizələr yürütmək, düzgün nəticələr çıxarmaq mümkün deyil.

Musiqi-nəzəri fənlərin tədrisində məqsəd dünya musiqi mədəniyyəti tarixində olan ümumi qəbul olunmuş qanun və qaydaları aşkar etmək, musiqinin qədim dövrlərdən müasir dövrədək olan inkişafını müəyyənləşdirməkdir.

Mühazirə musiqi nəzəri fənlərinin ən mühüm mövzularına dair məlumatların verilməsində əhəmiyyət kəsb edir. Bu ən vacib məlumatların çatdırılmasında yardımçı bir metoddur. Mövzu açıqlandıqca bəstəkarın yazdığı əsərlərin janr və formasının tələbələrə çatdırılması onun daha yaxşı mənimsənilməsinə kömək edir.

İnteqrasiya təhsil sisteminin əsas prinsiplərindən biridir. O, təbii əlaqələr şəraitində ümumiləşdirilmiş biliklərin verilməsi üçün əlverişli mühit yaradır.

Tədris prosesində təlim məqsədlərinin reallaşması kompleks şəklində həyata keçirilir. Klavirin əldə edilməsi, musiqi alətində ifa, təhlilin aparılması müəyyənləşdirilərək tələbə və müəllimin fəaliyyətini özündə birləşdirir.

İfa olunan əsərin təhlil prosesi daima tələbənin tədqiqatçı, axtarışda olan mütəxəssis kimi hazırlanmasına yönəldilir, ona müstəqil çalışmağın vacibliyini və əhəmiyyətini qavradır. Müəllim müasir təhsil konsepsiyalarını bilməklə tədris etdiyi fənnin məqsədlərini başa düşüləcək şəkildə izah etməlidir. Lazım olan tədris materiallarını – müvafiq musiqi əsərlərinin klavirini müəyyənləşdirməli, tələbələri müzakirəyə cəlb etməlidir. Onlarda eşitmə, görmə, çalma, düşünmə və müstəqil fikir söyləmə qabiliyyətlərini inkişaf etdirməlidir.

Təhlil prosesi müəllim və tələbə arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığa əsaslandığından stimullaşdırma müəllimin və tələbənin uğurlarını dəyərləndirməklə onun daha yüksək təlim nəticələrinə istiqamətləndirilməsini təmin etməlidir. Bununla da tələbə gələcəyin mütəxəssisi kimi tələbkar, rəqabətlərə tab gətirmək üçün dərin biliklərə yiyələnməyə xüsusi maraq göstərməlidir.

Azərbaycan xalq musiqisinin əsasları fənni tədris edilərkən hər bir ladın özünəməxsus tetraxordları, kadensiyaları ilə yanaşı, həmçinin bəstəkarların yaradıcılıq fəaliyyətlərində öz əksini tapması müşahidə edilir. Eləcə də Azərbaycan bəstəkarlarının yaradıcılıq fəaliyyəti öyrədilərkən, həmçinin, onların əsərləri təhlil edilərkən lad, yaxud ladın istinad olunduğu müvafiq şöbəsi araşdırılır. Yəni bu fənnin tədrisində "Azərbaycan xalq musiqisinin əsasları", "Musiqi tarixi", "Musiqi əsərlərinin təhlili" fənlərinə inteqrasiya qaçılmazdır.

"Musiqi nəzəriyyəsi" fənninin tədrisi zamanı metr, ritm, vəzn, səsin ucalığı, qüvvəsi,

intervallar, onların müxtəlif quruluş və növləri ilə yanaşı, ladlar və qammalar üzrə mükəmməl biliklərə yiyələnmək vacibdir. Bu fənn üzrə əldə edilən biliklər "Musiqi tarixi", "Harmoniya", "Solfecio", "Azərbaycan xalq musiqisinin əsasları", "Polifoniya", "Musiqi əsərlərinin təhlili" kimi fənlərlə sıx əlaqədardır. Bəstəkarların əsərlərinə dair müvafiq məlumatlar verilərkən sonata, simfoniya, konsert, istərsə də opera, operetta, balet və digər silsilə əsərlərində ifa edilən, yaxud bəstələnən hissənin hansı tonallıqda olmasının açıqlanması məcburidir.

Həmçinin müəyyən bir vokal əsərinin registr etibarilə səsə uyğun olmadığı zaman onun digər tonallığa transpozisiya edilməsi üçün ladlar, tonallıqlar üzrə alınan mükəmməl biliklər zəruridir.

Eləcə də "Solfecio" fənni üzrə istər şifahi oxu zamanı, istərsə də imla yazısında metr, ritm, tonallıq, temp və sairə ifadə vasitələri üzrə alınan biliklər özünü nümayiş etdirir.

Xüsusilə "Harmoniya" ilə "Polifoniya" fənlərinin tədrisində "Musiqi nəzəriyyəsi"nin intervallar, həmçinin üçtonlar, xasiyyətli intervallar, major və minorla yanaşı qədim ladlar, çin, macar, bütün tonlu ladlar kimi mövzulara istinad qaçılmazdır.

"Musiqi nəzəriyyəsi" fənni üzrə alınan biliklər "Musiqi əsərlərinin təhlili"ndə daha çox gərəklidir. Belə ki, hər hansı bir bəstəkarın, istər xarici ölkə bəstəkarı, istərsə də Azərbaycan bəstəkarının əsəri təhlil edilərkən həmin əsərin forma, məzmun və xarakterinin təyinində tonallığın, kadensiyaların, hissələrinin düzgün araşdırılması üçün "Musiqi nəzəriyyəsi" fənninə inteqrasiya edilir.

"Harmoniya" və "Polifoniya" fənlərinin tədrisində "Musiqi nəzəriyyəsi" fənninə inteqrasiya qaçılmazdır. Funksional akkord ardıcıllıqları tədris edilərkən "Musiqi nəzəriyyəsi" fənni üzrə intervallar, qammalarda əsas pərdə üçsəslikləri, onların melodik vəziyyəti, sabit və qeyri-sabit səslər, eləcə də kadensiyalar və digər bölmələr üzrə mükəmməl biliklərə yiyələnmək tələb olunur. Eyni vəziyyət "Polifoniya" fənninin tədrisində nəzərə çarpır, xüsusilə polifonik əsərin təhlilində bu daha aşkar özünü nümayiş etdirir.

"Musiqi tarixi" fənni üzrə bəstəkarların yaradıcılıq fəaliyyətində özünəməxsus üslub xüsusiyyətləri araşdırılarkən mütləq "Harmoniya" və "Polifoniya" fənləri üzrə alınan biliklərə istinad edilir. Bu fənlərin inteqrasiyası daha çox "Musiqi əsərlərinin təhlili" fənninin tədrisində diqqəti cəlb edir. Janrından asılı olmayaraq hər hansı bir əsər təhlil edilərkən, onun forması araşdırılarkən hissələrin, periodun, onun cümlə və ifadələrinin təyinində "Harmoniya" və "Polifoniya" fənləri üzrə biliklərin mükəmməl olması vacibdir.

Musiqi-nəzəri fənlərin tədrisində mütləq inteqrativ üsul tətbiq edilməlidir. Musiqi tarixi və ədəbiyyatı, musiqi nəzəriyyəsi və solfecio, musiqi əsərlərinin təhlili, harmoniya, Azərbaycan xalq musiqisinin əsasları kimi fənlərin bir-birinə inteqrasiyası vacibdir. Belə ki, əsər ifa edilərkən, yaxud təhlil edilərkən onun forma və janr etibarilə təhlilindən əlavə, həmçinin əsərin:

- Müəllifi, onun üslub xüsusiyyətləri, yaradıcılığında üstünlük təşkil edən əlamətləri;
- Əsərin yarandığı tarixi şərait;
- Janrından asılı olaraq, səhnə əsəridirsə, librettosu, ilk tamaşası, əldə edilən nailiyyətlər, qazanılan müvəffəqiyyətlər;
- İfaçıların məharəti, ifa tərzi;
- Musiqi mədəniyyəti tarixində mövqeyi və əhəmiyyəti mütləq öz əksini tapmalıdır.

İfa edilən əsərin lazımi səviyyədə təqdim edilməsi üçün musiqi-nəzəri fənlərə inteqrasiya mütləqdir.

**Məqalənin aktuallığı.** Musiqi-nəzəri fənlərin, o cümlədən ifaçılıq sənətinin öyrədilməsində musiqi müəllimlərini ümumdünya musiqi mədəniyyəti, tarixi və ədəbiyyatı ilə

tanış etmək, dünyagörüşlərini genişləndirmə və s. əsas məsələlərdəndir. Eyni zamanda, "Musiqi tarixi" fənninin tədrisində musiqi-nəzəri fənlərə inteqrasiya özünü daha qabarıq büruzə verir ki, məqalədə də bu kimi vacib məsələyə toxunulması mövzunun aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə mövzu ilə bağlı istər xarici, istərsə də Azərbaycan bəstəkarlarının yaradıcılıq fəaliyyətlərinin bəzi məqamları açıqlanmış, müxtəlif musiqi fənlərinin tədrisində həmin əsərlərin forma, janr, xarakter, faktura, məzmun, ifadə vasitələri və s. kimi xüsusiyyətlərinin təhlili vacişliyi göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. "Təhsildə Dövlət Strategiyası" mövzusunda elmi seminar toplusu. Bakı, 2014.
2. "Musiqi tarixi" fənni üzrə kurikulum. Bakı, 2015.
3. İ.Qədimova, E.Əfəndiyeva. Musiqi. Bakı, 2007
4. E.Əfəndiyeva. Musiqi əsərlərinin təhlili. Bakı, 2009.
5. E.Əfəndiyeva. Musiqi tarixi. Bakı, 2014.

**Э. Эфендиева**

## Интеграция в преподавании музыки и теоретических предметов

## Резюме

В системе музыкального образования огромное значение имеет взаимосвязь музыкально-теоретических дисциплин. В процессе изучения одного музыкального предмета необходимо твердое знание в области другой теоретической дисциплины как история музыки, анализ музыкальных произведений, гармонии, полифонии, теории музыки и сольфеджио.

**E. Efendiyeva**

## Integration in the teaching of music and theoretical subjects

## Summary

In the system of music education, the interrelation of musical-theoretical disciplines is of great importance. In the process of studying one musical subject, solid knowledge is needed in the field of another theoretical discipline such as the history of music, analysis of musical works, harmony, polyphony, music theory and solfege.

**Redaksiyaya daxil olub:** 11.04.2019